Təbiətdə mövcud olan agaclar, kollar, daşlar və digər bitki örtüyü hava şəraitinə və işıqlanma dərəcəsinə, günün, ilin vaxtına görə müxtəlif rəng tonlarında və çalarlarında ola bilirlər. Hətta eyni rəngli bitkilər günün altında və ya kölgədə inkişaf etməsindən asılı olaraq eyni rəngin müxtəlif tonlarında və çalarlarında olurlar. Rəsmetmə zamanı bu xüsusiyyətin nəzərə alınaraq düzgün həllini tapması mənzərənin taleyində xüsusi rol oynayır.

***Ədəbiyyat***

Е.В.Шорохов. «Основы композиции», Москва, 1970, 304 страница.
Əli Verdiyev «Dəzgah rəngkarlığı», Bakı, 1988, 72 səhifə.
Г.Б.Беда «Основы изобразительной грамоты», Москва, 1981, 240 страница.
Н.Н.Ростовцев «Методика преподавания изобразительного искусства в школе», Москва, 1980, 240 страница.
В.С.Кузин. «Методика преподавания изобразительного искусства 1-3 классах», Москва, 1979, 223 страница.
В.С.Щербаков «Изобразительное искусства», Москва, 1969, 272 страница.

## СВОЕОБРАЗНЫЕ ОСОБЕННОСТИ ИЗОБРАЖЕНИЕ ПЕЙЗАЖА В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ

***Мамедов Фаиг Шаиг оглы***

***Резюме***

В статье даны своеобразные особенности изображение пейзажа при обучении изобразительному искусству. Показаны методы и приемы обучения пейзажной живописи. Эти методы и приемы для начинающих художников имеют огромное значение и приносят им пользу.

## THE PECULIAR FEATURES OF LANDSCAPE PAINTINGS IN FINE-ARTS

***Mammadov Faig Shaig***

***Summary***

While drawing landscapes in fine arts, their peculiarities are investigated and commented in the article. There are given important advices for those who are new in painting.

***Rəyçi; prof. Məmmədov Mərdan***
***Təsviri incəsənət kafedrasının 26 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olduğu tarix 20 dekabr 2021-ci il***

**UOT -37.01**

## RƏNGLƏRİN İNSAN PSİXOLOGİYASINA TƏSİRİ

***Səfərova Anna Elxan qızı***
***Gəncə Dövlət Universiteti***
***Seferlianna1@gmail.com***

**Xülasə:** *Bu gün rənglərin simvolikasından reklam biznesində geniş istifadə olunur. Psixoloqlar müəyyən ediblər ki, göy, qızılı, ağ, qara və qırmızı rənglərdən hər hansı məhsulu elit təbəqəyə layiq kimi göstərmək məqsədilə istifadə etmək olar, çünki bu rənglər ta qədim zamanlardan elit təbəqəni simvolizə edən "bahalı" rənglər hesab edilirlər. Həqiqətən də, bahalı məhsullarda göy və ya qara rəngin qızılı rənglə sintezindən geniş istifadə olunur. Qara rəng loqotipi (məsələn, qızılı rənglə yazılmış loqotipi) və ya məhsulun öz təsvirini daha effektiv şəkildə önə çıxarmağa imkan verir.*

*Rəng-qavraması psixologiyası mövzusunda aparılmış çoxsaylı psixoloji və sosioloji tədqiqatlar yeknəsəq, yəni eyni tərkibli bir mənzərə yaradır. Bir tərəfdən, rənglərin emosional təsiri universal, dünyəvi obyektlərin xüsusiyyətləri ilə şərtlənir (mavi səma, qırmızı qan, sarı günəş, yaşıl ot və s), digər tərəfdən isə o fərqli xalqların mədəniyyətləri ilə bağlıdır və vacib deyil, biz bu təsiri dərk edirik, ya yox. Gündəlik həyatda rənglər ilə təmasda olan və onun simvolik mənası ilə üzləşən insanlar təkcə rəssamlar, dizaynerlər, naqqaşlar və rəsm sənətinin digər təmsilçiləri deyil.*

*Rəng – müəyyən uzunluğa malik dalğalı işıq qıcıqlandırıcılarının göz bəbəyinə düşməsi nəticəsində yaranan sensor təəssüratıdır (işıqlı spektr adlanan, təqribən 180-780* nano metr *diapazonunda elektromaqnit şüalanması). Rəng-qavramasının fizioloji aspektləri ondan ibarətdir ki, təkamül prosesi nəticəsində insanın göz bəbəyinin arxa hissəsində fotoreseptor əmələ gəlmişdir.*

*Təxminən 380-780 nano metr uzunluqda olan elektromaqnit dalğaların təsiri nəticəsində bu reseptorlar fizioloji (sinir) siqnalları generasiya etmək qabiliyyətinə malik olurlar. İki növ fotoreseptorlar mövcuddur: çubuqşəkilli və kolba şəkilli. Çubuqşəkilli reseptorlar yalnız qara və ağ rənglərin kontrastlarını qavrayır, onlar həddindən artıq işığa həssasdırlar, hətta toranlıq və qaranlıq zamanı görməni mümkün edirlər. Kolba şəkilli reseptorlar isə rənglərin qavranmasına görə cavabdehdirlər.*

**Açar sözlər:** İsti və soyuq rənglər, rənglərin qavranılması psixologiyası, rənglərdən simvolik istifadə

**Ключевые слова:** Теплые и холодные цвета, психология цветового восприятия, символическое использование цветов

**Keywords:** Warm and cold colors, psychology of color perception, symbolic use of flowers

Rənglər insan psixologiyasina təsir edən əsas vasitələrdən biri hesab olunur. Bu təsirlər musbət və mənfi ola bilər. Musbət təsiri insani dincəldir, rahatlaşdırır mənfi təsiri isə ətrafdakı mənfi enerjini özunə cəlb edir və bu orqanizmin xəstələnməsi ilə də nəticələnə bilər. Məhz bu səbəblərə görə rəngləri araşdırmaq onların əsas xususiyyətlərini insan psixologiyasina necə təsir göstərdiyini öyrənmək lazımdır. Alimlər təsdiq edirlər ki, göz rəngi qəbul edir və yavaş-yavaş beyində proses baş verir. Psixoloqlarin fikrincə rəng iinformasiyanın ən muhum növlərindən biridir. Aparılan tətqiqatlardan sonra alimlər belə qənaətə gəliblər ki, insanın bu və ya digər rəngi seçməsi şəxsiyyətin milli və fərdi xususiyyətlərindən asılıdır. Bu və ya digər rəngə ustunluk vermək muəyyən insanların malik olduğu gizli xususiyyətləri əks etdirir. Subut olunub ki, rəng seçimi zamanı insan bunu yaşına və cinsinə uyğun arqumentlərlə əsaslandırır. Rənglərin dəyişməsi və harmoniyası insanlar uçun zəruridir. Alimlər hansı rəngə ustunluk verməsindən və həmin rənglərin xarakteristikasından istifadə edərək insanların sağlamlığı barədə diaqnostik fikirlər irəli surublər. Bu baxımdan İsveçrəli psixoloq Luşerin tətbiq etdiyi testləri qeyd etmək yerinə duşər. Avropada həkimlər həmin testlərdən yardımçı diaqnostik vasitə kimi geniş istifadə edirlər. Hər bir rəng insan əhval-ruhiyyəsinə muəyyən təsir göstərir. Bəzi rənglər sinir sisteminə qıcıqlandırıcı təsir görsətdiyi, guclu oyanma yaratdığı halda, digərləri eksinə, sinir sistemini sakitləşdirir. Bu səbəbdən də rənglərin insan psixolo-giyasına təsiri iki yere ayrılır. Bu təsirlərdə birincisi qıcıqlandırıcı, ruhlandırıcı, ikincisi isə qəmginlik gətirən narahatlıq yaradan kimi xarakterizə olunur. Məsələn, muəyyən muddət ərzində təmiz qırmızı rəngə baxan insanın qan təzyiqi yuksəlir, tənəffus və urək döyuntulərinin tezliyi artır. Təmiz göy rəngə baxan insanda isə əksinə fərqli hal muşahidə olunur, onun qan təzyiqi aşağı düşür, ürək döyüntüsü və tənəffüsü ləngiyir. Beləliklə, rənglərin insan həyatı və psixologiyası fiziologiyasına özunəməxsus təsiri var. Biz rənglər aləmində yaşadığımızdan hər birimizin də sevimli və sevmədiyimiz rənglər var. Elmi araşdırmalar subut edib ki, insan görmə orqanı vasitəsiylə 180-dək rəng tonunu və onların 10000-dən artıq rəng çalarlarının fərqləndirməyə qabildir. Hər bir rəngin özunəməxsus

xususiyyətləri var və onlar barədə bilmək cox maraqlıdır. İnsan hansısa rəngin təsirindən xəstələnə və ya sağala uğur qazana və uduza bilər. Subut olub ki, qadın və kişilərin rəngləri qavramasında fərq mövcuddur. Qeyd edək ki, onların xususiyyətləri haqqında ayrıca elmi sahəsi də var və koloristika adlanır. Rənglər nəinki insan ömrünü daha parlaq edir, həm də insanın əhval ruhiyyəsini muəyyənləşdirir, fikir və əməllərinə təsir göstərir.

***Rəng-qavraması psixologiyası*.** Bu mövzuda aparılmış çoxsaylı psixoloji və sosioloji tədqiqatlar yeknəsəq, yəni eyni tərkibli bir mənzərə yaradır. Bir tərəfdən, rənglərin emosional təsiri universal, dünyəvi obyektlərin xüsusiyyətləri ilə şərtlənir (mavi səma, qırmızı qan, sarı günəş, yaşıl ot və s), digər tərəfdən isə o fərqli xalqların mədəniyyətləri ilə bağlıdır və vacib deyil, biz bu təsiri dərk edirik, ya yox. Gündəlik həyatda rənglər ilə təmasda olan və onun simvolik mənası ilə üzləşən insanlar təkcə rəssamlar, dizaynerlər, naqqaşlar və rəsm sənətinin digər təmsilçiləri deyil. Rənglərin emosional təsiri həmçinin dildə də əks olunur, məsələn hamıya bu frazalar məlumdur: «öküz qırmızı görən kimi», «ağ xələtli insanlar», «hirsindən rəngi qaralmaq» və başqaları. Cədvəldə rənglərin simvolik variantları və onların insan psixikasına təsir xarakterləri verilmişdir. Rəng-qavramanın tədqiqi zamanı biz iki eksperiment apardıq. Birinci eksperimentdə biz təcrübəçilərə (10 kişi və 10 qadın) fərqli cür rənglənmiş slaydları göstərir və onların bu və ya digər rəngin qavranması zamanı nümayiş etdirdiyi neyron aktivliyini qeydə alırdıq. Ikinci təcrübədə isə iştirakçılara öpüşən və bir-birinə aşiq cütlərin təsviri verilmiş 30 fotoşəkil göstərildi. Bu şəkillərin içərisində həm monoxrom (yəni saya, bir rənglə boyanmış –qırmızı, sarı, göy, yaşıl, qara) həmçinin rəngli şəkillər də var idi. Hər bir şəkil altı fərqli rəng variantında (təsadüfi ardıcıllıqda və bir saniyə ərzində) göstərilirdi. Təcrübənin keçirilməsi zamanı biz bilərəkdən və məqsədyönlü şəkildə iştirakçılardan şəkildəki insanların məhz hislərini qiymətləndirməyi xahiş edirdik ki, onların diqqəti rənglərə yönəlməsin və ya onlara qarşı subyektiv münasibət yaranmasın. Araşdırmanın obyekti bu və ya digər rəng çalarının hansı isə bir fotoşəkilin qiymətləndirilməsinə göstərdiyi təsiri müəyyən etmək idi.

***Tədqiqatın nəticələri***

**1. *Rəng və transduksiya.*** Transduksiya prosesi (rəng qıcıqlarının beynin sinir dilinə «tərcümə» olunması) fərqli rənglərin qavranması zamanı heç də eyni qədər vaxt tələb etmir və hansı rəngin emal olunmasından asılı olaraq beynin müvafiq hissələrində neyron fəallığının intensivliyi də müxtəlif cür olur. Şüurlu qavramanın başlamasına qədər (təxminən 200-300 milli saniyə) yaşıl və göy rənglər beynin alın hissəsində daha güclü neyron oyaqlığına səbəb olur, nəinki göy. Qırmızı rəng isə öz növbəsində beynin peysər və gicgah payında daha çox aktivliyə səbəb olur, bu da rəngin güclü emosional qüvvəsi ilə bağlıdır. Elmi cəhətdən sübut olunmuşdur ki, vizual qıcıqlandırıcıların impulsları peysər və gicgah hissələrindən keçərək, dərhal limbik sistemə düşür (emosiyaların mənbəyi məhz burada yerləşir). Burda atalar sözünü doğruluğu «Göy – ağıl rəngi, qırmızı isə – ehtiras rəngidir» hətta elmi cəhətdən, yəni neyrofizioloji baxımdan da özünü doğruldur.

**2. *Rənglər və emosiyalar.*** Rənglərin ətraf aləmin emosional cəhətdən qavranılmasına göstərdiyi təsir həm də onunla izah olunur ki, rəng qavraması zamanı neyron aktivliyinin pik məqamı qıcıqlandırıcının gözə təsirinin başlanması anından 50-150 milli saniyə sonraya təsadüf edir (bu da təhtəlşüur qavrama müddəti adlanır). Beləliklə rənglər koqnitiv (şüurlu yaşama) proseslərə çox böyük nüfuz göstərir, çünki onların təhtəlşüurda emal olunması neyron aktivliyinin pik səviyyəyə çatması ilə nəticələnir.

**3. *Şüurlu qavramada rənglərin təsirinin rolu.*** Şüurlu qavrama zamanı (hansı ki, 300 milli saniyə ötdükdən sonra başlayır) rənglər neyron fəallığına tamam başqa cür təsir göstərir. Başqa sözlərdə desək, subyektin sosiallaşması prosesində əldə olunmuş təcrübənin, həmçinin onun individual rəng zövqünün, müəyyən rənglərə verdiyi üstünlüyün, şəxsi keyfiyyətlərin və motivasiya strukturunun rənglərin qavranmasına məxsusi böyük təsiri vardır.

Bəzi rənglərin təsirinin fərqli mədəniyyət təmsilçilərinə doğurduğu reaksiya oxşar və ya eyni olur. Qırmızı rəngin, göy və yaşıldan daha intensiv təsir göstərdiyi üçün, parlaq kontrastlı rənglərin ahəngi daha güclüdür, nəinki tutqun rənglərin ahəngi. Bir də, əgər hər hansı bir mimika (qıcıqlandırıcıya qarşı bioloji reaksiya) qlobaldırsa, harada olmasından asılı olmayaraq ümumidirsə, bu hələ də o anlama gəlmir ki, hər hansı bir rəngin qavranmasına olan reaksiya da vahid və eyni olmalıdır: sosial assosiasiyanın və kulturoloji amillərin təsiri həddindən artıq güclüdür.

**4. Rəng və cins.** Qadınlarda və kişilərdə rəng qavramasının 200 milli saniyə müddətindəki (təhtəlşüur qavrama) neyrofizioloji reaksiyasını ətraflı şəkildə araşdırmaq və müqayisə etmək çox maraqlı olardı. Müəyyən edilib ki, qadınlarda rəng qavraması zamanı kişilərə nisbətən daha çox neyro fəallıq müşahidə olunur. Bu fenomen məhz təhtəlşüur qavrama zamanı ortaya çıxdığı üçün, güman etmək olar ki, qadınlar ümumiyyətlə rənglərə emosional reaksiya verirlər. Kişilərə isə, əksinə, daha çox ağ qara təsvirlər təsir göstərir.

**Qırmızı rəng** – iş qabiliyyətini artırır. Tənbəlliyin duşmənidir. Bunlarla yanaşı əsəbiliyə də yol aça bilər. Hərəkətin daha çox olduğu yerlərdə, uşaq otaqlarında, içtimai yerlərdə istifadə edilməsi məsləhətdir.

**Narıncı rəng** - həyaca yaradır. İnsanın yaradıcılıq gücünü artırır, arxayınlıq cəsarət və ünsiyyət doğurur. Məktəbdə uşaq və yemək otağı ilə dəhlizdə istifadəsi məsləhət görülür. Portağalın aclığı artıraraq iştahı təsir etdiyi düşünülür. Zehni aktivliyi və zəkanı artıracağı düşünülür. Tədqiqat işlərində narıncı işığa məruz qalmağın idrak və ayıqlığı yaxşılaşdırdığı göstərilmişdir. Portağal payızın əsas rəngidir və eyni zamanda yayla əlaqələndirilir. Narıncı rəngli açıq çalarlar qonaqpərvər hesab olunur, tünd çalarlar isə vicdansızlıqla müəyyən edilir.

**Sarı rəng -** ilham qaynağı hesab olunur. İnsana nikbin əhval ruhiyyə bəxş edir. Mətbəx uçun daha munasidir. Lakin iş otaqlarında istifadə etmək olmur..çunki zehni yorğunluğa səbəb ola bilər. İstirahət guşələrində də istifadəsi məsləhət deyil.

**Yaşıl rəng** – sakitləşdirici hesab olunmaqla yanaşı, əməkdaşlığa, comərdliyyə çağırışdır. Bu rəng özünü ifadə etməyə köməkçi olur. Otaqları daha geniş göstərir. Yataq və iş otaqlarında da istifadə edilə bilər. Açıq rəngləri divar üçün uyğundur. Yaşıl görünən işıq spektrində sarı ilə mavi arasında yerləşir və tarazlığı təmsil edir. Baharın rəngidir və ümumiyyətlə böyümə, həyat, məhsuldarlıq və təbiətlə əlaqələndirilir. Yaşıl təhlükəsizliyi təmsil edir və firavanlıq, sərvət, qismət və maliyyə ilə əlaqələndirilir.

**Mavi rəng** – barışı sevgini ifadə edir. Xəyalpərəstlik və həddindən artıq romantiklik yarada bilər. Sakitləşmək stressi aradan qaldırmaq uçun yararlıdır. Hərəkətin və işin çox olduğu yerlərdə istifadə edilməməsi məsləhət görülür. Tund tonları tənbəllik yaradır. Tədqiqat işlərində, mavi işığın da sıfırlandığı təsbit edildi sirkadiyalı ritmlər və ya yuxu oyanma dövrləri. Günəşdən gələn işığın mavi dalğa boylarını maneə törədir epifiz gün ərzində melatoninin sərbəst buraxılmasından. Melatonin bədənə yuxu vaxtının gəldiyinə işarə edir. Mavi işıq bizi oyaq qalmağa təşviq edir.

**Bənövşəyi rəngi -** özunə etibatı təmsil etməklə yanaşı xoş əhvala səbəb olur. Bu rəngin eyni zamanda unutqanlıq və səbirsizlik yaratması da məlumdur. Lavanta, yasəmən və orkidə tonlarından yataq və iş otaqlarında istifadə etməklə özunuzə arxayınlıq hissi artırmaq olar. bənövşə görünən işıq spektrindəki ən qısa dalğa boyudur. Mavi və qırmızı rənglərin birləşməsidir və zadəganlığı, gücü və royalti təmsil edir. Bənövşəyi dəyər, keyfiyyət və dəyər hissi ilə ünsiyyət qurur. Həm də mənəviyyat, müqəddəslik və lütfkarlıqla əlaqələndirilir. Açıq bənövşəyi rənglər romantikliyi və incəliyi, tünd bənövşəyi isə kədər, qorxu və qorxunu simvolizə edir.

**Ağ rəng -** enerji sisteminin tarazlaşdırır, yaradıcılıq qabiliyyətini ortaya çıxarır və inkişaf etdirir. Şərq mədəniyyətlərində ağ rəng kədər və ölümlə əlaqələndirilir. Qərb mədəniyyətlərində saflığı, məsumluğu və sterilliyi təmsil edir. Ağ, təhlükəsizlik, mənəviyyat və inamla da əlaqələndirilir. Mənfi birliklər ağ ilə təcrid, boşluq və əlçatmazlıq hissi daxildir.

**Qara rəng –** gücü və bağlılığı təmsil edir. Dunyanın əksər ölkələrində qara rəng matəm rəmzi sayılır. Bu rəngi seçənlərin qarşısında hansısa prablemləri durur. Qara bədbinliyi təmsil edir. Qara rəngli geyimlərə üstünlük verən insanlar özünə qapalı, ciddi xarakterə malik özündən razı şəxslər daxildir. Qara rəng əsəbləri gərginləsdirib, enerjini tukədir.

**Boz rəng –** boşluq, həyatın inkarı rəmzlərini özundə birləşdirir. Boz rəngin seçilməsi daxili boşluq əlamətidir. Boz neytral rəng olub xüsusiyyətini gizlədən ciddi xarakterli insanların rəngidir. Bu tip insanlar birtərəf mövqedə olub, heç kimə etibar etmirlər. Əsas iş adamları boz rəngli kostyumlara üstünlük verirlər.

**Qəhvəyi rəng –** bu rəngə insanlar fiziki narahatlıq və xəstəlik vəziyyətində daha cox meyl göstərillər. Qəhvəyi rəng ictimai tarazlıgı və cəmiyyət içində rahatlığı təmin edən təsirə malikdir.

**Çəhrayı rəng -** Çəhrayı qadınlıqla ən çox əlaqəli rəngdir. Xoşbəxtlik, sevgi, oynaqlıq və istilik fikirlərinə bağlıdır. Çəhrayı həm də harmoniya və yaxınlıqla əlaqədardır. Açıq çəhrayı həssaslığı və xeyirxahlığı, isti çəhrayı isə ehtiras və çirkinliyi ifadə edir. Çəhrayının sakitləşdirici bir təsirə sahib olduğu düşünülür və bir çox həbsxanada məhkumlar arasında şiddətli davranışı azaltmaq üçün çəhrayı tutma kameraları var. Mənfi birliklər çəhrayı rəng ilə yetkinlik, fiziki zəiflik və aşağı özünə inam daxildir.

***Ədəbiyyat***

1.Naməlum Səttar. BAKI-2006

2.Mərdan Məmmədov. ”Təsviri incəsənətdə yaradıcılıq janrları” BAKI-2020

3.Nigar Abbaszadə. ”Rənglərin psixologiyası haqqında”

4.Mahmudova Rəsmiyyə “Rəsim, rəngkarlıq, kompozisiya”. Bakı . Avanqard E.MMC. 104s.

5.Mərdan Məmmədov “Təsviri incəsənətin ifadə vasitələri”

## ВЛИЯНИЕ ЦВЕТОВ НА ПСИХОЛОГИЮ ЧЕЛОВЕКА

***Сафарова Анна Елхан кызы***

***Резюме***

Сегодня символика цветов широко используется в рекламном бизнесе. Психологи выяснили, что синий, золотой, белый, черный и красный цвета можно использовать для создания любого производство, достойного элиты, потому что эти цвета издавна считались «дорогими» цветами, символизирующими элиту. Действительно, синтез синего или черного с золотом широко используется в дорогих производство. Черный логотип или позволяет более эффективно выдвинуть изображение крупным планом.

Многочисленные психологические и социологические исследования психологии показали восприятия цвета как однообразную картину. С одной стороны, эмоциональное воздействие цветов обусловлено характеристиками универсальных, светских объектов, с другими-связано с культурами разных народов, и не имеет значения, понимаем мы это или нет. Люди, которые в повседневной жизни соприкасаются с цветом и сталкиваются с его символическим значением, - это не только художники, дизайнеры, художники и другие представители искусства живописи.

Цвет-это сенсорный эффект падающих на зрачок световых раздражителей с длиной волны (так называемый световой спектр, электромагнитное излучение в диапазоне примерно 180-780 нанометров). Физиологические аспекты восприятия цвета заключаются в том, что в результате эволюционного процесса в задней части глазного яблока человека сформировался фоторецептор.

В результате воздействия электромагнитных волн длиной около 380-780 нанометров эти рецепторы обладают способностью генерировать физиологические (нервные) сигналы. Фоторецепторы бывают двух типов: стержневидные и трубчатые. Рецепторы в форме палочки воспринимают только контрасты черного и белого, они чувствительны к сильному свету, что позволяет видеть даже в сумерках и темноте. Трубчатые рецепторы отвечают за восприятие цвета.

## INFLUENCE OF COLORS ON HUMAN PSYCHOLOGY

*Safarova Anna Elxan kyzy*

***Summary***

Today, flower symbols are widely used in the advertising business. Psychologists have found that blue, gold, white, black and red can be used to create any production worthy of the elite, because these colors have long been considered "expensive" colors, symbolizing the elite. Indeed, the synthesis of blue or black with gold is widely used in expensive production. A black logo (for example, a logo written in gold) or allows you to more effectively push the image in close-up.

Numerous psychological and sociological studies of psychology have shown the perception of color as a monotonous picture. On the one hand, the emotional impact of colors is due to the characteristics of universal, secular objects (blue sky, red blood, yellow sun, green grass, etc.), on the other hand, it is associated with the cultures of different peoples, and it does not matter whether we understand this or no. People who in everyday life come into contact with color and come across its symbolic meaning are not only artists, designers, painters and other representatives of the art of painting.

Color is the sensory effect of light stimuli with a wavelength falling on the pupil (the so-called light spectrum, electromagnetic radiation in the range of approximately 180-780 nanometers). The physiological aspects of color perception are that, as a result of an evolutionary process, a photoreceptor has formed in the back of the human eyeball.

As a result of exposure to electromagnetic waves of about 380-780 nanometers in length, these receptors have the ability to generate physiological (nerve) signals. Photoreceptors are of two types: rod-shaped and tubular. The rod-shaped receptors perceive only contrasts of black and white, they are sensitive to strong light, which allows you to see even at dusk and darkness. Tubular receptors are responsible for color perception.

***Rəyçi: dosent Məmmədov Şaiq***
***Təsviri incəsənət kafedrasının 26 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olduğu tarix 20 dekabr 2021-ci il***

**UOT:37.01.**

## CİZGİ RƏSMLƏRİNDƏ İSTİFADƏ EDİLƏN MATERİALLAR

***Verdiyeva Esmira Hüseyn qızı***
***Gəncə Dövlət Universiteti***
***verdiyefvaesmira@ mail.ru***

**Xülasə:** *Rəsm cox zaman kağız üzərində karandaşla çəkilir. Rəsm üçün ən geniş yayılmış material- qrafit karandaşdır. Rəsm üçün elastikliyi və faktura xüsusiyyətinə malikliyi ilə fərqlənən yanmış ağac kömüründən də istifadə etmək olar. O, əşyanın formasının xırda sahələrini də ümumiləşmiş halda göstərir.*

*Xətlə yanaşı tonal-tonal rəsmin həcmi məkan xüsusiyyətinin göstərilməsində müxtəlif xarakrerli ştrixovkanın da rolu az deyil.*